

***Ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılan enerji siyasəti "Əsrin müqaviləsi" ilə dünyanın ilk neft hasilatçılarından olan Azərbaycanı bu gün beynəlxalq enerji bazarlarında birbaşa iştirakçıya çevirib. Bu müqavilə həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanılan ən iri sazişlərdən biridir. İmzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dolları investisiya qoyuluşunun 57,6 milyard dolları dəniz yataqlarının mənimsənilməsinə və perspektivli strukturlarda axtarış-kəşfiyyat işlərinin aparılmasına yönəldilib. Nəhayət, 1999-cu ilin dekabrında Azərbaycanın mənfəət nefti ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarılıb. Nəticədə, enerji resursları ölkəmiz üçün yalnız dövlət gəlirlərinin artması mənbəyi deyil, həmçinin ciddi geosiyasi alətə çevrilib.***




# "Əsrin müqaviləsi" Azərbaycanın inkişaf strategiyasının əsasıdır

Azərbaycan artıq dünya enerji təhlükəsizliyinə töhfə vermiş ölkələrdən sayılır. Digər maraqlı nüans olaraq qeyd etmək istərdim ki, qlobal arenada enerji təchizatçısı kimi respublikamızın müstəqil beynəlxalq siyasət həyata keçirmə imkanları möhkəmlənib. Geosiyasi mövqelərimizin güclənməsi ilə yanaşı, bu müqavilə, eyni zamanda, Azərbaycan iqtisadiyyatına, əhalinin sosial rifahına ciddi pozitiv təsirlər göstərib.

"Əsrin müqaviləsi" ilk olaraq ölkənin beynəlxalq güvənini ciddi şəkildə artırmaqla xarici investisiya axınını sürətləndirib. Bu investisiyaların böyük bir qismi enerji sektoruna yönəldilsə belə, sözügedən sərmayələrin ölkə iqtisadiyyatının digər sferalarına və işsizlik kimi sosial problemlərə müsbət mənada təsirsiz qalmayıb.

Beləliklə, 1994-cü ildən başlayaraq, Azərbaycan qlobal enerji bazarının ən böyük aktorları ilə rəsmi şəkildə əməkdaşlığa başlayıb. Ataşkəs sazişi və "Əsrin müqaviləsi" nəticəsində ölkə iqtisadiyyatının ən uzunmüddətli tənəzzül prosesi dayandırılıb və 1995-ci ildən başlayaraq, tərəqqi meyilləri müşahidə edilib. Əgər ölkə iqtisadiyyatı 1994-cü ildə 11,8 faiz kiçilmişdirsə, 1995-ci ildə 1,3 faiz artım dərin depressiyanın sonu olub. Təbii ki, hələ sürətli inkişaf dövrü qarşıda idi və Azərbaycan nefti ilk dəfə 2005-ci ildə Bakı–Tbilisi–Ceyhan neft kəməri ilə dünya bazarlarına çıxacaq və külli miqdarda neft gəlirləri ölkənin inkişafında, infrastrukturun bərpasında və sosial imkanların genişlənməsində – büdcə gəlirlərinin artmasında ciddi rol oynayacaqdı.

"Əsrin müqaviləsi"nin davamı və onun yaratdığı imkanlar kontekstində 2017-ci ildə Azərbaycan daha bir strateji layihəyə imza atdı. Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə həyata keçirilən enerji strategiyası 2050-ci ilədək ölkəmizin neft hasilatının sabit şəkildə davam etdirilməsini, dövlət gəlirlərinin artırılmasını və eləcə də qeyri-neft sektorunun inkişafı üçün maliyyə təminatı formalaşdırmaqdadır.

"Azəri–Çıraq–Günəşli" neft-qaz yataqları blokunun işlənməsi üzrə sazişin uzadılmasında diqqətçəkən məqamlardan biri də odur ki, qlobal investorlar artıq tam əmindirlər ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə investisiyalar üçün etibarlı və təhlükəsiz ölkə hesab olunur. "Əsrin müqaviləsi"nin Azərbaycanın milli maraqlarına tam cavab verməsi ilə yanaşı, "Yeni əsrin müqaviləsi" ölkəmizin müasir iqtisadi gücünə uyğun olaraq şərtlərin daha yaxşılaşdırılmasına imkan yaradıb. "Əsrin müqaviləsi" ilə "Yeni əsrin müqaviləsi"nin müqayisəsi, eyni zamanda, bu sazişin Azərbaycan iqtisadiyyatına, eləcə də regionda dövlətimizin mövqeyinə təsirlərini qiymətləndirən zaman bir məqama da diqqət ayırmaq lazımdır ki, 1994-cü ildə ölkəmizin iqtisadiyyatı və eləcə də iqtisadi gücü təbii ki, tamamilə fərqli idi.

Bu gün Azərbaycan regional proseslərə təsir imkanlarına malik olan dövlətdir. 1994-cü ildə Azərbaycan iqtisadiyyatının kiçik olmasına baxmayaraq, bağlanan "Əsrin müqaviləsi"ndə ölkəmizin maraqlarını qorumaq mümkün oldu. O zaman Azərbaycanın ümumi daxili məhsulunun həcmi 374 milyon manat idi. Ötən müddətdə ümumi daxili məhsulun həcmi 161 dəfə artıb. Buna baxmayaraq, "Əsrin müqaviləsi"ndə öz dövlət və milli maraqlarımıza uyğun olaraq şərtlər xarici şirkətlərlə razılaşdırılıb. Bu da təbii ki, birbaşa ümummilli lider Heydər Əliyevin siyasi iradəsi nəticəsində mümkün olub.

Artıq Azərbaycan tamamilə fərqli mövqedədir, iqtisadiyyatı sürətli inkişaf yolundadır. Bu kontekstdə "Yeni əsrin müqaviləsi" Azərbaycana 3,6 milyard dollar bonusu əldə etmək imkanı verəcək. 1994-cü ildə Azərbaycanın dövlət gəlirləri çox az idi. O zaman imzalanan "Əsrin müqaviləsi"nə əsasən, Azərbaycana xarici şirkətlər tərəfindən 300 milyon dollar bonus ödənilmişdi. Ötən müddət iqtisadiyyatımızın inkişaf etməsi və Azərbaycanın mövqeyinin daha da güclənməsi əldə edilən bonusun həcminin 12 dəfə artmasına gətirib çıxardı ki, bu da nəticə etibarilə ölkəmizə xarici valyutanın daxil olması baxımından vacibdir.

"Yeni əsrin müqaviləsi" çərçivəsində Azərbaycan iqtisadiyyatına 40 milyard dollar investisiya qoyulacaq. Bu, həm neft sektorunun inkişafı baxımından vacibdir, eyni zamanda, neft sektoruna yardımçı sahələrin, hətta qeyri-neft sənayesinin inkişafını stimullaşdıran bir amildir. Çünki bütün hallarda neft sektoruna yönəldilən investisiya, həm də qeyri-neft sektorunun inkişafı üçün bir maliyyə təminatı formalaşdırır.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti 2020.- 22 sentyabr.- S.8.